# "Nizami Gəncəvi İli"ndən

# İntellektual poetik baxış



İsa HƏBİBBƏYLİ

### Nizami Gəncəviyə fəxriyyə

Ədəbiyyatın yorulmaz Fərhadı,
Divan ədəbiyyatının ustadı,
Dünya ədəbiyyatına yazılmış adı.
Şərq şeirinin ulu öndəri,
Azərbaycan ədəbiyyatının
Makedoniyalı İskəndəri.
"Xəmsə" yaradan Şair,
Baxsan haradan - Şair!
Ədəbiyyatın
Yeddi möcüzəsindən biri,
Hər zaman yaşarı, diri,
Doğum yeri -
Azərbaycanın Gəncə şəhəri.
Kökü - oğuz türkləri.
Məskəni: şeir-sənət səngəri.
Sirlər xəzinəsinin Sultan Səncəri!
Adı: İlyas Yusif oğlu Nizami Gəncəvi!
Ünvanı: Əbədi!

*16 fevral 2021-ci il*

### "Xəmsə"yə minacat

Dünya ədəbiyyatının
Birinci beşliyi,
Böyük sənətin qoşa şeşliyi.
Azərbaycan ədəbiyyatının
Sirlər xəzinəsi,
Müdriklik, hikmət və sənət dəfinəsi.
Xosrov və Şirinin sevərək yaşamaq həvəsi,
Sənət dünyasının söz yüklü dəvəsi.
"Leyli və Məcnun" -
Əsl məhəbbətin Azərbaycan hekayəsi,
Sədaqətin Məcnunvari ayəsi.
"Yeddi gözəl" -
Məğribdən - Məşriqə,
Yeddi iqlimin nadir poetik səsi,
Möhtəşəm Xeyir və Şər abidəsi.
"İskəndərnamə" -
Çoxəsrlik ədalətli hökmdar layihəsi,
"Şərəfnamə" - Şəxsiyyətin mahiyyəti.
"İqbalnamə" - Aristoteli yenidən
dərk etmək əsri,
Platonik ideyaları şərh etmək dərsi.
Dünya işlərinin dəyirman pəri,
Makedoniyalı İskəndərin tarixi hünəri,
Azərbaycan hökmdarı Nüşabənin ağlı,
Nizami Gəncəvinin əbədiləşən nağılı.
"Xəmsə" -
Dünya şedevrlərindən biri,
Böyük sənətin sirri.
"Xəmsə" -
Azərbaycan ədəbiyyatının
Dünyaya uzanan əli,
Əbədiyaşar sənət məşəli,
Nizami Gəncəvinin ölməzlik heykəli!

*17 yanvar 2021-ci il*

### "Yeddi gözəl"ə oda

"Yeddi gözəl" -
Qövsüqüzeh, -
Yeddi gözəllərin əzəli,
Ərəbistan gözəlinin qəzəli.
Slavyan qızı -
Yeddi gözəlin qızıl gülü,
"İxtilatı şirin, sözü məzəli".
Hindistan banusunun şirin dili,
"Şəkər gülüşündən canlar təzəli".
Xarəzm gözəli, vətəni Rum eli,
"Ellər yaraşığı, ölkə gözəli".
Çin qızının xeyrə açılan əli.
Fitnə -
Azərbaycanda
Qadın müdrikliyinin heykəli.
Yeddi gözəlin yenilməz beli.
Yeddi günbəz -
Rəsul Rzanın "Rənglər"i.
Qara Qarayevin "Yeddi gözəl"i -
"Yeddi gözəl"lərin ən gözəli,
Yeddi gözəllik uvertürası,
Dünya ədəbiyyatının mirası.
Bəşəriyyətin bugünü, sabahı
Və sonrası.

*27 mart 2021-ci il*

### Nüşabənamə

Dövlətçiliyinin
Dəyanətli qadın nümayəndəsi,
Azərbaycanın əsl hökmdar bəndəsi.
Makedoniyalı İskəndərin
Tərəf-müqabili.
İskəndərlə dialoqun qalibi.

*9 dekabr 2021-ci il*

### Bakıda Nizami metrosu

Yeraltı dünyada
Mozaika ilə yaradılmış "Xəmsə",
Yerin təkində dönüb Şəmsə.
Təzə Leyli və Məcnunların görüş yeri,
Nizami Gəncəvi sənətinə
Yeraltı aləmdə dönüş yeri
"Xəmsə" ölməzliyinin fərqli bir qatı,
Nizami Gəncəvinin o biri həyatı.
Divarlardakı mozaik şəkillər
O vaxt kimi.
Peronlar, gediş-gəliş,
Danışan dillər, əllərdə güllər
Müasir həyat kimi.
Qatarlar qovuşdurur zamanları
Oyadır, yaşadır insanları.
Nağıllardakı ağ at kimi.
Vaqonlar, səfərlər -
İskəndərin
Yeraltı dünya səyahəti.
Sərnişinlər -
"Xəmsə" obrazları heyəti...
Bakıda Nizami metrosu -
Fərhadın Yeri də yarmaq cürəti,
Nizami Gəncəvinin
Yeraltı dünyanı da
Fəth etmək qüdrəti,
Nizami sözünün ildırım sürəti...

*29 dekabr 2021-ci il*